# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər”in təsdiq edilməsi haqqında**

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 fevral 2023-cü il

№ 36

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 6 fevral
tarixli 36 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair

# TƏLƏBLƏR

## 1. Ümumi müddəalar

1.1. Bu sənəd "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 3-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və qazın yanacaq və müxtəlif növ məhsulların istehsalı üçün xammal kimi istehlakı prosesində istifadə olunan məişət və sənaye qaz qurğularının (bundan sonra – qaz qurğuları) tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələbləri müəyyən edir.

1.2. Qaz qurğularının sertifikatlaşdırılması "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən aparılır.

1.3. Yeni tikilən və ya yenidən qurulan qaz qurğularının layihələndirilməsi Qanunun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 23 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı Qaydaları"nın və qüvvədə olan qaz təchizatı üzrə layihələndirmə normalarının tələblərinə uyğun həyata keçirilir.

1.4. Bu sənəddə istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Qaz qurğularının tikintisinə və qurulmasına dair tələblər

2.1. Qaz qurğularının tikinti-quraşdırma işləri tikinti obyektlərinin qaz təchizatına dair layihə sənədinin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin və qaz təsərrüfatında təhlükəsizlik qaydalarının tələblərinə uyğun həyata keçirilir.

2.2. Qaz qurğularının tikinti-quraşdırma işləri aşağıdakı tələblərə cavab verməlidir:

2.2.1. qaz qurğuları tikinti obyektinin qaz təchizatı layihəsi ilə müəyyən edilmiş yerlərdə (otaqlarda) quraşdırılmalı;

2.2.2. tikinti obyektinin təyinatına uyğun olaraq qaz qurğularının quraşdırıldığı yerlərin (otaqların) hündürlüyü, həcmi, havalandırılması (ventilyasiyası), təbii və süni işıqlandırması qüvvədə olan qaz təchizatı üzrə layihələndirmə normalarına uyğun olmalı;

2.2.3. qaz qurğularının quraşdırılması zamanı tikinti obyektinin qaz təchizatı layihəsində spesifikasiyası (təsnifatı və xarakteristikası) göstərilən materiallardan və məmulatlardan istifadə edilməli;

2.2.4. qaz qurğularının quraşdırılmasında istifadə olunan materialların və məmulatların uyğunluq sertifikatı olmalı;

2.2.5. qaz qurğularının quraşdırılmasında yalnız sertifikatlaşdırılmış və yanğın təhlükəsizliyinə dair qanunvericiliyin tələblərinə uyğun materiallardan və məmulatdan istifadə edilməli.

2.3. Tikinti obyektində quraşdırılan qaz qurğuları “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qəbul edilmiş texniki reqlamentlərə (texniki reqlamentlər qüvvəyə minənədək dövlət standartlarına) cavab verməlidir.

2.4. Qaz qurğularının tikinti-quraşdırma işləri Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması sahəsində fəaliyyət göstərmək üçün lisenziya almış podratçılar tərəfindən həyata keçirilir.

2.5. Məktəbəqədər təhsil müəssisələrində, teatr və kinoteatrların bufetlərində qaz qurğularının quraşdırılması qadağandır.

2.6. İstehlakçılar, o cümlədən məişət abonentləri tərəfindən bu tələblərə əməl edilmədən qaz qurğularının özbaşına quraşdırılmasına yol verilmir.

2.7. Tikinti-quraşdırma işləri başa çatdırılmış qaz qurğularının istismara qəbul edilməsi (istismarına icazə verilməsi), sınaqdan keçirilməsi və qazpaylayıcı şəbəkəyə qoşulması qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları” ilə müəyyən edilir.

## 3. Qaz qurğularının istismarına və işçi vəziyyətdə saxlanılmasına dair tələblər

3.1. Qaz qurğuları onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun təhlükəsiz istismar edilməlidir.

3.2. İstehlakçılar tərəfindən qaz qurğularının istismarına və onların işçi vəziyyətdə saxlanılması üçün aşağıdakı tələblərə əməl edilməlidir:

3.2.1. yalnız ixtisaslaşmış podratçılarla və ya qaz paylayıcısı ilə bağlanılmış müqavilə əsasında və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən yaşayış sahəsində

qaz qurğularının təmiri və onlara texniki xidmət göstərilməsi həyata keçirilməlidir;

3.2.2. qaz qurğularına dair layihə və istismar sənədlərinin tələblərinə əməl edilməli;

3.2.3. azyaşlı uşaqların, öz hərəkətlərinə nəzarət edə bilməyən və qaz qurğularından istifadə qaydaları ilə tanış olmayan digər şəxslərin qaz qurğularından istifadə etmələrinə yol verilməməlidir;

3.2.4. istehlakçıların qaz qurğularının işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi məqsədilə Qanunun 6-2-ci maddəsinə uyğun olaraq qaz paylayıcısı tərəfindən qaz qurğularına keçirilmiş müayinə nəticəsində aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması və qaz qurğularına texniki xidmətin həyata keçirilməsi üçün Qanunun 6-3-cü maddəsi ilə müəyyən edilmiş tədbirlər görülməlidir;

3.2.5. qaz qurğusunda nasazlıq və ya qaz iyinin yaranması zamanı dərhal qaz qurğusundan istifadəni dayandırmalı, qurğuya gedən xəttin və avadanlığın üzərində olan ventilləri bağlamalı, otaqların havasını dəyişdirmək üçün pəncərələri və ya nəfəslikləri açmalı, od yandırmamalı, tütün çəkməməli, elektrik cihazlarını yandırmamalı və ya söndürməməli, elektrik qapı zənglərindən istifadə etməməli və qaz paylayıcısına təcili məlumat verilməlidir;

3.2.6. qaz qurğularının quruluşuna (konstruksiyasına) dəyişikliklər edilməməli və onların avtomatlaşdırılmış təhlükəsizlik və tənzimləmə vasitələri ləğv edilməməlidir;

3.2.7. işə salınmış qaz qurğuları nəzarətsiz qoyulmamalıdır (daimi fəaliyyət üçün nəzərdə tutulmuş və müvafiq avtomatlaşdırma ilə təchiz edilmiş qaz qurğuları istisna olmaqla);

3.2.8. qaz qurğularından yalnız təyinatına uyğun məqsədlər üçün istifadə edilməlidir;

3.2.9. elektrik və istilik enerjisi qurğularının yerləşdiyi tikinti obyektlərinin qaz qurğularına münasibətdə əlavə olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın 2.4.1.29-cu və 3.11.2.24-cü yarımbəndləri ilə müəyyən edilmiş tələblər yerinə yetirilməlidir.

3.3. Sənaye qaz qurğularına münasibətdə qaz qurğularının istismarı prosesində əlavə olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nın 3.3-cü bəndi ilə müəyyən edilmiş tələblər yerinə yetirilməlidir.